

# Sabirabad şəhər Üzeyir Hacıbəyli adına Uşaq Musiqi məktəbi

Sabirabad şəhər Ü. Hacıbəyli adına Uşaq Musiqi məktəbi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin müvafiq əmri əsasında 1967-ci ildə təsdiq olunmuş və fəaliyyətə başlamışdır. 1993-cü ildə məktəbə dahi bəstəkar Üzeyir Hacıbəylinin adı verilmişdir.

Məktəbdə fortepiano, xalq çalğı alətləri və nəzəriyyə şöbələri fəaliyyət göstərir. Şagirdlər fortepiano, qarmon,tar, kamança, nağara, klarnet və xanəndə ixtisasları üzrə təhsil alırlar.

Məktəbdə çalışan müəllimlərin əksəriyyəti vaxtilə məktəbimizin məzunları olmuşlar.

Məktəbin xanəndə ixtisası üzrə müəllimi Səməd Səmədov 2015-ci ildə Heydər Əliyev fondunun layihəsi, Mədəniyyət Nazirliyi, Azərbaycan Televiziyasının iştirakı ilə V Televiziya Muğam müsabiqəsində laureat adına layiq görülmüşdür.

Məktəbin xanəndə ixtisası üzrə müəllimi Sarxan Baxşıyev 2015-ci ildə Mədəniyyət Nazirliyi , ANS Telekanalı tərəfindən keçirilmiş "Xalqın artisti" musiqi yarışmasının qalibi olmuşdur



Məktəbimizin məzunlarından Ramiz Əzizov hal-hazırda Milli Konservatoriyada Xalq çalğı alətləri şöbəsinin müdiri vəzifəsində, adı Gənc İstedadların "Qızıl" Kitabına yazılmış pianoçu Elmir Məhərrəmov hal-hazırda Azərbaycan Milli Konservatoriyasında müəllim, Yusif Bədəlov Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim-konsertmeystr vəzifəsində çalışır.

Azərbaycan Respublikasının Prezidentinin xüsusi təqaüdcüsü, adı Gənc İstedadların " Qızıl" Kitabına yazılmış pianoçu Aqşin İsmayılov məktəbimizdə təhsil almış və hal-hazırda Bülbül adına orta-ixtisas musiqi məktəbində müəllim vəzifəsində çalışır.

2022-ci il may-iyun aylarında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən Uşaq Musiqi və İncəsənət məktəblərinin şagirdlərinin iştirakı ilə keçirilmiş muğam festivalında məkətbin xanəndə ixtisası üzrə V sinif şagirdi Ağazadə Əli Rəmzi oğlu ( Müəllim Səməd Səmədov) I dərəcəli diploma layiq görülmüşdür.

Hər il olduğu kimi bu il də məktəbimizin məzunları Mansur Ağayev qarmon ixtisası üzrə AMK nəzdində Sumqayıt Musiqi Kollecinə, Hidayət Cəfərli qarmon ixtisası üzrə Şuşa Humanitar Kollecinə , Maqsud Rəhimli və Toğrul Abıyev xanəndəlik ixtisası üzrə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə qəbul olublar.

Məktəbimizdə çalışan müəllimlər səmərəli fəaliyyətlərinə görə dəfələrlə Sabirabad rayon İcra Hakimiyyəti, Sabirabad Regional Mədəniyyət İdarəsi tərəindən fəxri fərman və diplomlarla təltif olmuşlar.

15 oktyabr 2021-ci il tarixdə Ağdaş şəhərində keçirilən Uşaq musiqi məktəbləri şagirdləri arasında Xalq çalğı alətləri ifaçıları və Xanəndəlik ixtisası üzrə "Zəfər" adlı regional musiqi Festivalının Sabirabad Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Uşaq Musiqi məktəbinin şagirdləri xanəndə ixtisası üzrə v sinif şagirdi Ağazadə Əli (müəllim Səməd Səmədov) nağara ixtisası üzrə V sinif şagirdi Məmmədzadə Dilqəm (müəllim Fərid Axundov) I yerin qalibi olmuşlar.

23 oktyabr 2021- ci il tarixdə Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq Musiqi məktəbində 44 günlük Vətən müharibəsinin birinci ildönümü ilə əlaqədar «Vətən bölünməz, şəhidlər ölməz!" mövzusunda açıq dərs keçirilmişdir.Şagirdlərə 44 günlük Vətən müharibəsi, işğaldan azad olunmuş bölgələr haqqında məlumat verilmiş, şagirdlər şəhidlərə həsr olunmuş şerlər söyləmişlər. Tədbirdə Sabirabad rayon Ə.Qurbanov adına Qalqayın kənd tam orta məktəbin nəzdində fəaliyyət göstərən İcma Əsaslı Məktəbə Qədər Təhsilin İnkişafı Mərkəzinin tərbiyəçi-müəllimi Məhərrəmova Xəyalə Yasəf qızı iştirak etmiş və şagirdlərə işğaldan azad olunmuş Qarabağ bölgələrinin adət -ənənələri,məşhur sənətkarları haqqında geniş məlumat vermişdir.

29 oktyabr 2021- ci il tarixdə Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq Musiqi məktəbinin bir qrup müəllim və şagirdləri 44 günlük Vətən müharibəsinin birinci ildönümü ilə əlaqədar Hərbi Qənimətlər Parkında ekskursiyada olmuş, ordakı hərbi eksponatlarla tanış olmuşlar.

6.11.2021-ci il tarixdə Zəfər günü ərəfəsində mu-



siqi məktəbinin müəllim və sağirdləri məktəbin məzunu olmuş qazimiz Şahini ziyarət etmişdilər.

Ü.Hacıbəyli adına Uşaq Musiqi məktəbinin müəllim kollektivi məktəbin məzunu olmuş şəhid Əliyev Asim Asəf oğlunun ailəsini və qəbrini ziyarət etmişdilər.

03 dekabr 2021 – ci il tarixində Sabirabad Regional Mədəniyyət İdarəsinin dəstəyi və Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq Musiqi məktəbinin təşkilatçılığı ilə "Beynəlxalq Əlillər günü"nə həsr olunmuş tədbir keçirilmişdir.

19.01.2022-ci il tarixdə «20 Yanvar» şəhidlərinə həsr olunmuş "Əbədi yaşarlar" adında tədbir keçirilmişdir. Məktəbin fortepiano müəllimi Bağırova Sevdanın şagirdləri şəhidlərə həsr olunmuş şerlər söyləmiş, Gülməmmədova Nisə, "20 yanvar faciəsi" haqqında mə-



lumat vermişdir. Tədbirdən sonra şagird və müəllimlər şəhidlər xiyabanını ziyarət etmiş, şəhidlərin məzarına gül qoymuşdular.

26.02.2022-ci il tarixdə "Xocalı fəryadı" adlı tədbir keçirilmiş və videoçarx nümayiş olunmuşdur.

07.03.2022-ci il tarixdə "8 Mart- Beynəlxalq qadınlar günü" nə həsr olunmuş tədbir keçirilmişdir.

19.03.2022-ci il tarixdə Sabirabad rayon uşaq musiqi məktəbində «Elimizə Novruz gəlir» adlı bayram tədbiri keçirilmişdir.

19 aprel 2022-ci il tarixdə Sabirabad rayon Ü.Hacıbəyli adına Uşaq Musiqi məktəbində 2022- ci ilin « Şuşa ili» elan olunması ilə əlaqədar Sabirabad Regional Mədəniyyət İdarəsi tərəfindən keçirilən «Mədəniyyət beşiyi- Şuşa» adlı regional yaradıcılıq festival-müsabiqəsinin xalq çalğı alətləri və xanəndəlik ixtisası üzrə Ağazadə Əli 1-ci yer (xanəndə ixtisası müəllim Səmədov Səməd), Ağayev Yusif 2- ci yer (xanəndə ixtisası müəllim Baxşıyev Sarxan), Allahquliyev Adil 1-ci yer (qarmon ixtisası müəllimlər Bədəlov Əli və Ağayeva Sevda), Səmədov İkram 3- cü yer (qarmon ixtisası müəllim Paşayev Ələbbas) təltif olunublar.

Ölkəmizdə 2022-ci ilin "Şuşa İli" elan olunması ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın çoxəsrlik mədəni, tarixi irsinin təbliğ olunması və qorunması, eyni zamanda xüsusi istedada malik olan uşaq və gənclərin yaradıcılıq potensialını inkişaf etdirmək və yeni istedadları üzə çıxarmaq məqsədilə Şuşa rayonunun və digər bölgələrin uşaq musiqi və incəsənət məktəblərinin şagirdlərinin iştirakı ilə muğam festivalı keçirilmişdir. Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq Musiqi Məktəbinin şagirdi Ağazadə Əli Rəmzi oğlu



1 dərəcəli diploma layiq görülmüşdür.

10 may 2022-ci il tarixdə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu il dönümünə həsr olunmuş tədbir keçirilmişdir.

Ölkəmizdə 2022-ci ilin "Şuşa İli" elan olunması ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın çoxəsrlik mədəni, tarixi irsinin təbliğ olunması və qorunması, eyni zamanda xüsusi istedada malik olan uşaq və gənclərin yaradıcılıq potensialını inkişaf etdirmək və yeni istedadları üzə çıxarmaq məqsədilə Şuşa rayonunun və digər bölgələrin uşaq musiqi və incəsənət məktəblərinin şagirdlərinin iştirakı ilə muğam festivalı keçirilir

Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq Musiqi Məktəbinin şagirdi Ağazadə Əli Rəmzi oğlu seçilmişdir. Region mərhələsi üzrə 1-ci yerin qalibi olmuşdur.

28 May 2022-ci il tarixdə Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq Musiqi Məktəbində 1- ci siniflərin "Not bayramı" keçirilmişdir.

Tədbirdə not və musiqiyə aid maraqlı şerlər, rəngarəng mahnılar, maraqlı rəqslər şagirdlər tərəfindən nümayiş etdirilmişdir.

01.06.2022-ci il tarixdə Ü. Hacıbəyli adına Uşaq Musiqi məktəbində 1 iyun Uşaqların




Beynəlxalq müdafiəsi günü»nə həsr olunmuş «Uşaqlar bizim gələcəyimizdir» adlı musiqili- kompozisiya keçirilmişdir.

Ölkəmizdə 2022-ci ilin "Şuşa İli" elan olunması ilə əlaqədar olaraq, Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbində "Şuşa təranələri" adlı fortepiano ixtisası üzrə sinif konserti keçirilmişdir. Konsertin təşkilatçısı məktəbin fortepiano müəllimi Nəsibə Əliyeva Şuşa səhərində doğulmuş bəstəkarlardan danışmışdlr. Sonra şagirdlər tərəfindən müxtəlif səpkili əsərlər ifa olunmuşdur.

11.06.2022-ci il tarixdə Ü. Hacıbəyli adına Uşaq Musiqi Məktəbində «Məzun günü» tədbiri keçirildi. Tədbirdə bir-birindən maraqlı musiqi nömrələri, şeir və rəqslər ifa olundu.

Ölkəmizdə 2022-ci ilin "Şuşa İli" elan olunması ilə əlaqədar olaraq, Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbində "Əziz Şuşa sən azadsan!" adlı fortepiano ixtisası üzrə sinif konserti keçirilmişdir. Konserin təşkilatçısı məktəbin fortepiano müəllimi Səkinə Şıxəliyeva 44 günlük Vətən müharibəsi haqqında məruzə ilə çıxış etmişdir. Şagirdlər şəhidlərə həsr olunmuş şeirlər söyləmişdilər. Daha sonra şagirdlər tərəfindən maraqlı rəqslər nümayiş edilmiş, Azərbaycan bəstəkarlarının əsərləri ifa olunmuşdu. Konsertin sonunda Şuşaya həsr olunmuş şagirdlərin əl işləri nümayiş edilmişdir.

Ölkəmizdə 2022-ci ilin "Şuşa İli" elan olunması ilə əlaqədar olaraq 14.06.2022-ci il tarixdə Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbində "Əzizinəm Qarabağ" adlı fortepiano ixtisası üzrə Zeynalova Gülarə, Qasımova Sədəf, Ağayeva Namilə müəllimlərin şagirdlərindən ibarət sinif



konserti keçirilmişdir. Konsertdə müxtəlif səpkili əsərlər ifa edilmişdir.

Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq Musiqi məktəbində «26 iyun Silahlı Qüvvələr günü»nə həsr olunmuş yekun konsert keçirilmişdir.

Tədbirdə 44 günlük müharibədə həlak olan şəhidlərin xatirəsi bir dəqiqəlik sükütla yad edilmiş və daha sonra şagirdlər tərəfindən Milli ordumuza həsr olumuş şeirlər, Qarabağ haqqında mahılar, müxtəlif səpkili əsərlər və zəfər ritmləri ifa olunmuşdur.Sonda iştirakçılar xatirə şəkli çəkdirdilər.

Məktəbimizdə bütün təqvim bayramları və əlamətdar günlər tədbir şəklində qeyd olunur. 2022-ci ildə aprel-may aylarında Azərbaycanın dahi bəstəkarları Fikrət Əmirov və Rauf Hacıyevin anadan olmalarının 100 illik yubileyləri keçirilmişdir.

Məktəbimizdə çalışan müəllimlər səmərəli fəaliyyətlərinə görə dəfələrlə Sabirabad rayon İcra Hakimiyyəti, Sabirabad Regional Mədəniyyət İdarəsi tərəfindən fəxri fərman və diplomlarla təltif olmuşlar.

**Sabirabad şəhər Ü. Hacıbəyli adına**
**Uşaq Musiqi Məktəbinin direktoru**
**Aynur RƏHİMOVA**